*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   25 noyabr 2017-ci il   № 89 (2206)   Qiyməti 25 qəpik


# Azərbaycan Prezidenti və NATO-nun baş katibi mətbuata bəyanatla çıxış ediblər

Noyabrın 23-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və NATO-nun baş katibi Yens Stoltenberq mətbuata bəyanatla çıxış ediblər.





## NATO-nun baş katibi Yens Stoltenberqin bəyanatı

- Prezident Əliyev, NATO mənzil-qərargahına yenidən xoş gəlmisiniz. Sizi burada görməyə çox şadam. Çox konstruktiv görüşə görə Sizə təşəkkürümü bildirirəm. Mən, həmçinin Şimal Atlantika Şurası çərçivəsində görüşü də səbirsizliklə gözləyirəm. Siz bu Şurada bütün 29 müttəfiq ölkənin nümayəndələri ilə görüşəcəksiniz.

Bu gün biz aramızda olan uzunmüddətli əməkdaşlığımızı müzakirə etdik. Biz Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyasına qoşunlar, tranzit imkanları və Əfqanıstan milli təhlükəsizlik qüvvələrinə maliyyə dəstəyi formasında verdiyiniz davamlı dəstəyə görə Sizə minnətdarıq. Həmçinin Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyasına qoşunların artırılması ilə bağlı qərarınıza görə Sizə təşəkkürümü bildirirəm.

NATO ilə Azərbaycan arasındakı tərəfdaşlığın başlanğıcı uzun illər bundan öncəyə təsadüf edir. Bu tərəfdaşlığın təməli demokratik dəyərlərə və prinsiplərə sadiqlik əsasında qoyulub. Bu gün bizim praktiki əməkdaşlığımız bacarıqların inkişafından tutmuş enerji təhlükəsizliyinə qədər bir çox sahələri əhatə edir və keçmiş Sovet ordusundan qalmış partlamamış mina və hərbi sursatların təmizlənməsi üçün etimad fondu çərçivəsində aparılır. Mən, həmçinin Sizə BMT Təhlükəsizlik Şurasının qadınlar, sülh və təhlükəsizlik üzrə 1325 saylı qətnaməsini bizim əməkdaşlıq gündəliyimizə daxil etdiyiniz üçün təşəkkürümü bildirirəm. Bütün bunlar Avratlantik məkanın daha da təhlükəsiz olmasına töhfə verir. Biz seçdiyiniz bütün sahələrdə Sizinlə işimizi davam etdirməyə və əməkdaşlığımızı daha da inkişaf etdirməyə sadiqik. Biz Sizi təhlükəsizlik sahəsində islahatların daha da artırılmasına dəvət edirik və korrupsiya ilə mübarizə sahəsində Sizə dəstək olmaq üçün bizim dürüstlüyün artırılması proqramından tam faydalanmağa çağırırıq.

Bu gün biz, həmçinin Cənubi Qafqazda regional təhlükəsizliyi də müzakirə etdik. Həll olunmamış Dağlıq Qarabağ münaqişəsi narahatlığa səbəb olan məsələdir. Aydındır ki, bu münaqişənin hərbi yolla həll olunması imkanı yoxdur və NATO bu məsələdə birbaşa rola malik deyil. Biz ATƏT-in Minsk Qrupunun həmsədrlərinin işini dəstəkləyirik və Ermənistan prezidenti ilə bərpa etdiyiniz dialoq barədə eşitdiyim xəbər məni ruhlandırdı. Biz münaqişənin həllinin danışıqlar yolunun davam etdirilməsini və vəziyyətin gərginləşməsinə yol verilməməsini dəstəkləyirik.

Beləliklə, Prezident Əliyev, icazə verin, buraya təşrif buyurduğunuz və NATO-nun mənzil-qərargahına baş çəkdiyiniz üçün Sizə bir daha təşəkkürümü bildirim. Şimali Atlantika Şurası çərçivəsində görüşünüz əməkdaşlığımızın gələcəkdə necə dərinləşdirilməsinin müzakirə edilməsi nöqteyi-nəzərdən əhəmiyyətli bir fürsət olacaqdır. Bir daha təşəkkür edirəm, buyurun.

## Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

- Çox sağ olun, cənab baş katib. Əvvəlcə dəvətinizə görə təşəkkür edirəm. NATO-nun mənzil-qərargahına bir daha gəlməyimə və əməkdaşlığımıza aid mühüm məsələlərin müzakirəsi üçün imkan əldə etdiyimə görə çox şadam.

Əməkdaşlığımızın artıq yaxşı tarixi var. Azərbaycan NATO-nun bir çox əməliyyatlarında - K-4-də, İSAF-da iştirak etmişdir. İndi isə Azərbaycan Qətiyyətli Dəstək Missiyasına öz töhfəsini verir. Əfqanıstanda təhlükəsizliyi və sülhü təmin etmək üçün 94 hərbi qulluqçumuz NATO hərbçiləri ilə çiyin-çiyinə xidmət edir. Azərbaycan, həmçinin koalisiya qüvvələri üçün multimodal tranzit və ərazimiz üzərindən uçuş imkanlarını təmin edir. Azərbaycan Əfqanıstan ordusunun Milli Etimad Fonduna töhfə verib və cənab baş katibin qeyd etdiyi kimi, Əfqanıstanda sülh, təhlükəsizlik və sabitliyə daha da artıq töhfə vermək üçün hərbi qulluqçularımızın sayını artıracağıq.

2004-cü ildən bəri Azərbaycan Fərdi Tərəfdaşlıq Fəaliyyət Planına qoşulub və dörd tsikli bitirib. Beşinci tsikl hazırda icra olunmaqdadır. Bu, həmçinin bizim əməkdaşlığımızın vacib elementidir.

Cənab baş katibin qeyd etdiyi kimi, biz bu gün regional təhlükəsizliklə bağlı məsələləri müzakirə etdik. Regional təhlükəsizlik üçün ən böyük təhlükə Ermənistan və Azərbaycan arasında həll olunmamış münaqişədir. Uzun illərdir ki, ərazilərimiz erməni işğalı altındadır, bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılıb və afsuslar olsun ki, vəziyyət dəyişməz olaraq qalır. ATƏT-in Minsk Qrupuna üzv olan ölkələrin prezidentlərinin status-kvonun qəbuledilməzliyi və dəyişməli olduğu ilə bağlı bəyanatlarına rəğmən Ermənistan status-kvonu mümkün qədər çox saxlamaq istəyir. BMT-nin Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılması ilə bağlı dörd qətnamə qəbul edib. Ermənistan iyirmi ildən artıqdır ki, bu qətnamələri icra etmir. Münaqişə BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və Azərbaycanın ərazi bütövlüyü əsasında həll olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır.

Bu gün biz, həmçinin nəqliyyat təhlükəsizliyi ilə bağlı məsələləri də müzakirə etdik. Mən cənab baş katibə məlumat verdim ki, Azərbaycan öz qonşuları ilə birlikdə Bakı-Tbilisi-Qars dəmir yolunun inşasını uğurla tamamlayıb. Bu, Asiya və Avropa arasında ən qısa yoldur və Əfqanıstana təchizat bu marşrut vasitəsilə daha asan və səmərəli olacaqdır.

Bizim NATO ilə əməkdaşlığımızın böyük potensialı var və əməkdaşlığın tarixi bunu nümayiş etdirir. Bu gün mənim NATO-nun mənzil-qərargahına səfərim artıq altıncı səfərdir. Beləliklə, bu, əməkdaşlığımızın çox güclü olduğunu nümayiş etdirir. Biz regionumuzda sülhü, təhlükəsizliyi və sabitliyi təmin etmək üçün tərəfdaşlığımızı davam etdiririk. Çox sağ olun.

**AZƏRTAC**

# Azərbaycan Prezidenti İlham Əliyev NATO-nun Şimali Atlantika Şurasının iclasında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Brüsseldə NATO-nun Şimali Atlantika Şurasının iclasında iştirak edib.

Şimali Atlantika Şurasının iclasında əvvəlcə NATO-nun baş katibi Yens Stoltenberq çıxış etdi. Sonra o, sözü Azərbaycan Prezidenti İlham Əliyevə verdi.

Dövlətimizin başçısı Azərbaycan ilə NATO arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi. Ölkəmizin NATO-nun müxtəlif missiya və əməliyyatlarında fəal iştirak etdiyini vurğulayan Prezident İlham Əliyev NATO-nun, öz növbəsində, Azərbaycanda ərazilərin minalardan təmizlənməsi işində fəal iştirak etdiyini bildirdi. Qeyd olundu ki, Azərbaycan Əfqanıstandakı sülhməramlı fəaliyyətini genişləndirir və bu ölkə ilə ikitərəfli səviyyədə iqtisadi və digər sahələrdə əməkdaşlığı həyata keçirir.



Prezident İlham Əliyev Azərbaycan-Avropa İttifaqı münasibətlərinə toxundu, əməkdaşlığın uğurla inkişaf etdiyini və onun müxtəlif sahələri əhatə etdiyini bildirdi.

Azərbaycanda demokratik inkişaf məsələlərindən danışan Prezident İlham Əliyev ölkəmizdə azad internet, söz, toplaşma və digər azadlıqların təmin edildiyini vurğuladı. Ölkəmizdə iqtisadi inkişaf məsələləri və bu sahədə həyata keçirilən genişmiqyaslı islahatlar barədə danışan dövlətimizin başçısı qeyd etdi ki, 2000-ci ildən bəri Azərbaycan iqtisadiyyatı 3 dəfə artıb, yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə, həmçinin işsizlik səviyyəsi 5 faizə düşüb, xarici borcumuz ümumdaxili məhsula nisbətən 20 faizdən də aşağı səviyyədədir.

Prezident İlham Əliyev Azərbaycanın dünyada multikulturalizm mərkəzlərindən birinə çevrildiyini, ölkəmizdə multikulturalizmin, tolerantlığın təmin olunduğunu və bununla bağlı bir sıra mühüm tədbirlərin keçirildiyini bildirdi. Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdiyini, Davos Dünya İqtisadi Forumunun ölkəmizin iqtisadiyyatını rəqabətqabiliyyətliliyinə görə dünya dövlətləri arasında 37-ci yerdən 35-ci yerə layiq gördüyünü qeyd edən dövlətimizin başçısı təhsil, infrastruktur, nəqliyyat və digər sahələrdə əldə olunan uğurlardan danışdı.

Prezident İlham Əliyev Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasındakı rolunu qeyd etdi, "Cənub Qaz Dəhlizi" layihəsindən danışdı, TANAP və TAP layihələrinin uğurla icra edildiyini bildirdi və Azərbaycanın uzun illər bundan sonra da Avropanın etibarlı qaz təminatçısına çevriləcəyini dedi. Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətini qeyd edən dövlətimizin başçısı bu yolun Asiya ilə Avropa arasında ən qısa yol olduğunu dedi, Azərbaycanın Şimal-Cənub və Şərq-Qərb arasında mühüm tranzit qovşağına çevrildiyini vurğuladı.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə geniş toxundu, Ermənistanın ölkəmizin 20 faiz torpaqlarını, o cümlədən Dağlıq Qarabağı və ətraf 7 rayonu işğal etdiyini vurğuladı. Ermənilərin həmin ərazilərdə törətdikləri hərbi cinayətlər, Xocalı soyqırımı, günahsız insanların qətlə yetirilməsi və etnik təmizləməyə məruz qalması barədə ətraflı danışan dövlətimizin başçısı ATƏT-in faktaraşdırıcı missiyalarının da işğal olunmuş ərazilərdə dağıntıları qeydə aldıqlarını bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, BMT Təhlükəsizlik Şurasının Ermənistan işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasını tələb edən 4 qətnaməsi icra edilmir və Ermənistan status-kvonu saxlamaq niyyətindədir. NATO-nun Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini deyən Prezident İlham Əliyev vurğuladı ki, Avropa İttifaqının müvafiq sənədlərində də ölkəmizin ərazi bütövlüyü dəstəklənir.

Sonra bir çox ölkələrin səfirləri çıxış etdilər və Azərbaycanın NATO-nun missiyalarında fəal rolundan danışdılar, ölkəmizin Əfqanıstana göstərdiyi yardımı və oradakı missiyada iştirakını yüksək qiymətləndirdilər, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsini qeyd etdilər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxundular və münaqişənin həllinin zəruriliyini bildirdilər.

Sonda dövlətimizin başçısı NATO-dakı səfirlərin suallarını cavablandırdı.

**AZƏRTAC**

# Azərbaycan ilə Pakistan arasında hərbi sahədə əməkdaşlıq müzakirə olunub

*Noyabrın 23-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Zübair Mahmud Hayat ilə görüşüb.*



General Z.M.Hayatın rəhbərlik etdiyi nümayəndə heyəti əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül-lər düzülüb.

Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib. Qonaq fəxri qarovul dəstəsinin önündən keçib və hər iki ölkənin Dövlət himnləri səsləndirilib. Protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.



Azərbaycanın Müdafiə naziri ilə Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri arasında əvvəl təkbətək, sonra isə geniş tərkibdə görüş keçirilib.

Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə general-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq xalqlarımız arasında ənənəvi dostluq və qarşılıqlı etimadın mövcudluğundan, eləcə də Azərbaycan-Pakistan əlaqələrinin yüksələn xətlə inkişaf etməsindən və strateji tərəfdaşlığın səviyyəsindən məmnunluğunu bildirib.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan Müdafiə naziri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verib. Bu münaqişənin həlli ilə bağlı Pakistanın Azərbaycanın ədalətli mövqeyini beynəlxalq təşkilatlarda dəstəkləməsinə görə minnətdarlığını bildirən nazir vurğulayıb ki, Azərbaycan da Pakistan İslam Respublikasının ərazi bütövlüyünü dəstəkləyir.

Görüşdə iki ölkə arasında təhlükəsizlik, hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın inkişafı, eləcə də Hərbi Hava və Hərbi Dəniz qüvvələri arasında əlaqələrin genişləndirilməsinin vacibliyi xüsusi vurğulanıb.

Sonra Pakistan nümayəndə heyəti Silahlı Qüvvələrin Baş Qərargahının inzibati binasında ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən muzeyi ziyarət edib, digər xidməti otaqlardakı iş şəraiti ilə tanış olub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycanın Müdafiə naziri BƏƏ generalı ilə görüşüb

*Noyabrın 21-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Milli Müdafiə Kollecinin nümayəndə heyətinin rəhbəri briqada generalı Salim Əl-Şamsi ilə görüşüb.*

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan Müdafiə naziri qonağa Azərbaycanın uzun illər erməni terrorizmi, separatizmi ilə üzləşdiyini, erməni terrorçuları tərəfindən respublikamızın dinc əhalisinə qarşı onlarla terror aktının törədildiyini və Ermənistanın terrorizmi dəstəkləyən ölkə olduğunu vurğulayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ölkələrimiz arasında hərbi təhsil, hərbi sənaye və hərbi-texniki sahələrdə əməkdaşlığın müzakirə olunduğu görüşdə onun inkişafı üçün geniş perspektivlərin mövcudluğu qeyd edilib. Bildirilib ki, bütün istiqamətlərdə olduğu kimi, hərbi sahədə də Azərbaycan-BƏƏ əməkdaşlığının genişləndirilməsi ölkələrimiz arasında münasibətlərin dərinləşməsinə, eləcə də regionda sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə layiqli töhfə verəcəkdir.



## Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələri nümayəndələri arasında qərargah danışıqları keçirilib

Azərbaycan Respublikasının Hərbi Hava Qüvvələri və Türkiyə Respublikasının Hərbi Hava Qüvvələrinin nümayəndələri arasında Bakı şəhərində qərargah danışıqları keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mütəxəssislərin iştirakı ilə keçirilən görüşdə hərbi, hərbi təhsil sahələrində əməkdaşlığın mövcud vəziyyəti, inkişaf perspektivləri, birgə planların dəqiqləşdirilməsi və digər istiqamətlərdə fikir mübadiləsi aparılıb.

Qonaqlar, həmçinin HHQ-nin hərbi hissələrini ziyarət ediblər.

# Hərbi qulluqçulara qayğı daim dövlətimizin diqqət mərkəzindədir

## HHQ-nin hava hücumundan müdafiə bölməsinin yeni yaşayış kompleksinin açılışı olub

*Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin ordu quruculuğunda da müstəsna rolu olub. Müdrik komandan ordunun formalaşdırılmasına böyük diqqət yetirərək qeyd edirdi ki, çətin və məsuliyyətli bir peşənin sahiblərinə qayğı dövlətin prioritet istiqamətlərindən biri olmalıdır.*



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev müdrik rəhbərin siyasi xəttini layiqincə davam etdirir və bütün çıxışlarında qətiyyətlə vurğulayır ki, Azərbaycan Ordusunun hərbi qüdrətini artırmaq dövlətin diqqət yetirdiyi əsas sahələrdən biridir. Bu fikir son illər əsl gerçəkliyə çevrilib. Hərbi xərclərin dövlət büdcəsində önəmli yer tutması da sübut edir ki, ordu quruculuğu ölkə rəhbərliyinin daim diqqətindədir.

Orduya ayrılan maliyyə vəsaiti təkcə müasir silah və texnikaların alınmasına xərclənmir, hərbin bütün sahələrinə, o cümlədən Vətənimizin müdafiəçilərinin sosial-məişət şəraitinə ciddi önəm verilir. Bu fikri konkret faktlarla isbat etmək üçün şəhər və rayonlarımızda yeni istifadəyə verilən hərbi şəhərcikləri, əsgər yataqxanalarını, yeməkxana-camaşırxana komplekslərini, müasir tələbatın tələbləri əsasında yaradılan hospital və tibb məntəqələrini misal göstərmək kifayətdir. Belə işlərin miqyası ildən-ilə artır, əgər 10-15 il əvvələ qədər orduda aparılan tikinti-abadlıq işləri barmaqla sayılırdısa, indi Azərbaycanın bütün bölgələrində müasir sosial-məişət kompleksləri tikilərək hərbi qulluqçuların ixtiyarına verilir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov dəfələrlə yeni hərbi obyektlərin açılış mərasimlərində qeyd edib ki, müasir dövrdə dövlətimiz, şəxsən Prezident, Ali Baş Komandan cənab İlham Əliyev orduda aparılan tikinti işləri ilə maraqlanır və hərbi qulluqçuların sosial qayğılarına diqqət yetirir. Nazir ordunun komandir-zabit heyəti ilə keçirilən müşavirələrdə bildirir ki, xalqın və dövlətin orduya verdiyi dəstək hərbi kollektivləri daha nümunəvi xidmətə ruhlandırır, hamını bir məqsədə - torpaqlarımızın işğaldan azad edilməsinə səfərbər edir. Əslində, ötən ilin aprel qələbəsi də göstərdi ki, dövlətin, Ali Baş Komandanın qayğısı ilə əhatə olunan Azərbaycan Ordusu göstərilən etimadı layiqincə doğrultmağa, qarşısına qoyulan mühüm vəzifəni istənilən vaxt yerinə yetirməyə qadirdir.



Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti noyabrın 22-də Hərbi Hava Qüvvələrinin hava hücumundan müdafiə bölməsinin yeni yaşayış kompleksinin açılışında iştirak edərək hərbi qulluqçular üçün yaradılmış şəraitlə tanış olub. Nazirliyin Mətbuat Xidmətindən verilən məlumata görə, bölmənin əsgər yataqxanasına, yeməkxanaya, tibb məntəqəsinə, sıra meydanına, idman şəhərciyinə, eləcə də digər xidməti və inzibati otaqlara baxış keçirilib.



Müdafiə naziri döyüş növbətçiliyində dayanan çoxməqsədli radiolokasiya stansiyaları, atıcı qurğular və digər döyüş vasitələrinin təyinatı, eləcə də taktiki-texniki xassələri ilə maraqlanıb. Burada xidmət edən hərbi qulluqçularla görüşüb söhbət edən nazirə məruzə edilib ki, bölmənin sərəncamında olan müasir silah və döyüş texnikası bütün növ hava hədəflərinin aşkarlanması, uçuş parametrlərinin təyin edilməsi və müxtəlif manevrlər şəraitində məhv edilməsi imkanına malikdir.

**"Azərbaycan Ordusu"**

# BƏƏ-nin Milli Müdafiə Kollecinin nümayəndə heyəti Silahlı Qüvvələrin Hərbi Akademiyasında olub





Noyabrın 22-də Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Milli Müdafiə Kollecinin nümayəndə heyətinin rəhbəri briqada generalı Salim Əl-Şamsi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasında olub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, nümayəndə heyəti akademiyada ulu öndər Heydər Əliyevin xatirəsinə yaradılmış guşə ilə tanış olduqdan sonra hərbi təhsil sahəsində ikitərəfli əməkdaşlıq imkanları müzakirə edilib.

Qonaqlara "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası", "Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq fəaliyyəti" və "Azərbaycan Respublikasının müdafiə və təhlükəsizlik siyasəti, onun prioritetləri" haqqında brifinqlər təqdim olunub.

Sonda briqada generalı Silahlı Qüvvələrin Hərbi Akademiyasının xatirə kitabına ürək sözlərini yazıb.

*Nümunəvi xidmət*

# "Övladlarımız qalib orduda xidmət edəcəklər"

*"N" hərbi hissəsinin düşmənlə təmas xəttində yerləşən bölməsindən qeydlər götürəndə şəxsi keyfiyyətlərinə görə fərqlənən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Yaşar Əliyevin ordu sıralarında 2014-cü ildən xidmət etdiyini öyrənirəm. Daşkəsən rayonundan olan gəncin vətənpərvərliyi, hərbçi olmaq istəyi onu yenidən ordu sıralarına qaytarıb. Baş leytenant Rəşad Bağırzadə tabeliyində olan əsgər haqqında xoş sözlər dedi:*

- Yaşar vətənpərvər, nizam-intizamlı və bacarıqlı hərbçidir. Yüksək şəxsi keyfiyyətlərə malikdir. Mərdliyi, qorxmazlığı ilə manqasındakı əsgərlərə ruh yüksəkliyi aşılayır. Həm öz xidmətini düzgün təşkil edir, həm də əsgərlərinin uğurlu xidmət etməsi üçün çalışır. Tələbkarlığı ilə yanaşı, həm də qayğıkeşdir.

Bacarıqlı manqa komandiri əsgərlərini döyüş növbəsinə hazırlayır. Onların üst-başına, silahlarına baxış keçirir. Peşəsinə sevgi və məsuliyyətlə yanaşır.

Hələ uşaq yaşlarından hərbçi olmaq istəyirmiş. "Qarabağ müharibəsi illərində vətəndaşlarımızın doğma torpaqlarından didərgin salınması, ermənilərin törətdikləri soyqırımlar, faciələr məndə düşmənə nifrət hissi yaratdı. Müəllimlərimə deyirdim ki, böyüyəndə hərbçi olacam, torpaqlarımızı işğaldan azad etmək və qardaş-bacılarımızın qisasını almaq üçün döyüşəcəm".



Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində təlim kursunu bitirdikdən sonra "N" hərbi hissəsində xidmətə başlayan, xidmətin ilk günlərindən bacarığı, məsuliyyəti ilə seçilən Yaşar Əliyev deyir ki, hər səhər şəxsi heyətin sıra baxışını keçirir və hərbi geyimlərinin qaydasında olmasını diqqətdə saxlayır. Həmçinin, əsgərlərin vaxtı-vaxtında tibbi müayinədən keçməsinə, gündəlik isti yeməklərlə qidalanmasına nəzarət edir. Döyüş hazırlığı, maddi-texniki təminatla yanaşı, əsgərlərin sosial-məişət şəraitinin də daim diqqət mərkəzində olduğunu və bölmədə hər cür şəraitin yaradıldığını vurğulayır.

- Biz Vətən qoruyucularıyıq, - Yaşar deyir. - Düşmən qarşısında inamla dayanmışıq. Ordumuzun hər bir hərbçisi kimi mən də Ali Baş Komandanın döyüş əmrini yerinə yetirməyə qadirəm. Keçən ilin aprelində düşmən üzərindəki qələbəmiz ruh yüksəkliyimizi daha da artırdı. Xalqın dəstəyi və güvənci gücümüzə güc qatdı. Hər bir vətəndaşımız əmin ola bilər ki, düşməni ata-baba torpaqlarımızdan qovub çıxarmağa qadirik.

İki uşaq atası olan Yaşar oğlunun da hərbçi olmaq istəyindən danışır.

- Evə gedəndə oğlum məni əsgəri salamla qarşılayır, papağımı, formamı geyinir, böyüyüb zabit olacağını deyir. Bu, mənim üçün böyük sevincdir. Hərbçi peşəsi ən şərəfli peşədir. Bu yolu seçənlər müqəddəs vəzifə yerinə yetirirlər, xalqın övladı, güvənc yeri olurlar, hər kəsin sevgisini, hörmətini qazanırlar. Oğlumu da belə mərd oğulların sırasında görmək ən böyük arzumdur. İnşallah, tez bir zamanda Vətənimizdə zəfər bayramı olacaq və övladlarımız qalib orduda xidmət edəcəklər.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Silahlı Qüvvələrində "NATO günləri" keçirilib

Azərbaycan Silahlı Qüvvələrində NATO-nun Müttəfiq Transformasiya Komandanlığı Qərargahının ekspert qrupu tərəfindən Bakı şəhərində "NATO günləri" təşkil olunub.

NATO-nun Hərbi Tərəfdaşlıq İdarəsinin qərargah rəisi polkovnik Aleksander Şvabın (Kanada) rəhbərlik etdiyi nümayəndə heyəti Silahlı Qüvvələrin Hərbi Akademiyası, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi və Hərbi Dəniz Qüvvələri komandanlığını ziyarət edib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbir çərçivəsində Silahlı Qüvvələrin zabit və kursantları üçün "NATO bu gün - strukturu və vəzifələri", "Azərbaycan-NATO əməkdaşlığı", "NATO-nun arzu etdiyi Strateji Təsir", "NATO-nun mövcud Dəniz Qüvvələri", "NATO Varşava Sammitindən sonra, NATO-nun Tərəfdaşlıq Siyasəti və Cənubi Qafqaz", "Qlobal kiber-inkişaf və NATO-nun cavabı" və digər mövzularda mühazirələr təqdim olunub.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***23 noyabr 2017-ci il.***

Hərbi cinayət törətdikdən sonra xidmət yerini özbaşına tərk edən, 05.01.2017-ci il tarixdə Sədərək rayonundan həqiqi hərbi xidmətə çağırılmış əsgər Cəlilbəyli Bəhrüz Pərviz oğlunun (27.11.1998-ci il təvəllüdlü) meyitinin Ermənistan-Azərbaycan dövlət sərhədinin Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu istiqamətindəki qoşunların təmas xəttində, Ermənistan silahlı qüvvələrinin mövqeləri yaxınlığında olduğu müəyyən edilib.

Açılmış cinayət işi üzrə istintaq davam etdirilir.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***24 noyabr 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 134 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Berd rayonunun Ayqepar, Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# "Arzularımıza qovuşacağıq"

*Silahlı Qüvvələrimizdə həyata keçirilən irimiqyaslı islahatların nəticəsi kimi, rabitə qoşunlarında da böyük texnoloji yeniliklər nəticəsində rabitə bölmələri müasir tələblərə cavab verən yeni texniki vasitələrlə təchiz olunub.*

Müharibədə qələbə döyüş ruhlu əsgərlərlə, düzgün və tam həyata keçirilən kəşfiyyatla, atəş gücü və manevr qabiliyyəti ilə bağlıdır. Bütün bunların isə zəncirvari təmin edilməsi prosesi rabitədən keçir. Bu baxımdan istənilən şəraitdə orduda etibarlı rabitə sistemi mühüm əhəmiyyətə malikdir.

"N" hərbi hissəsində atış və atəşin idarə olunması təlimi zamanı da rabitənin döyüş hazırlığında xüsusu rol oynadığının şahidi oluruq. Təlimin gedişi müddətində tanıdığımız rabitəçi əsgər Vüsal Şirəliyev də söhbət əsnasında rabitənin əhəmiyyətli rolunu vurğulayır: "Komandir heyəti tərəfindən verilən bütün əmr və göstərişlər bölmələrə rabitə qurğuları vasitəsilə çatdırılır. Məlumatların, daha doğrusu, istənilən müharibədə informasiya Qələbənin yarısı deməkdi. Belə ki, müharibənin ilkin mərhələsi rabitə avadanlıqları vasitəsilə aparılır. Ona görə də düşmən istifadə etdiyimiz tezliklərə müdaxilə etməyə çalışır. Ancaq təhlükəsizlik qaydalarına düzgün əməl etdiyimizdən istəyinə nail ola bilmir. Onu da qeyd edim ki, bu vasitələrin istismar xüsusiyyətləri mənimsənilmədən onların tətbiqi mümkün deyil. Bu baxımdan keçirilən dərslərin, təlimlərin peşəkar rabitəçilərin formalaşmasında rolu danılmazdır".

Dörd aydır ordu sıralarında xidmət edən əsgər hesab edir ki, hər bir gənc üçün müqəddəs olan möhtəşəm bir yola çıxıb: "Bu yol Vətən sevgisindən keçir, müqəddəs sevgidən qaynaqlanır. Çünki bütün sevgilərimizin əvvəli də, axırı da Vətənlə bağlıdır. Etiraf edim ki, mən "Vətən" anlayışının müqəddəsliyini səngərdə düşmənlə üz-üzə dayanandan, Vüqar Məmmədov kimi dostlar qazanandan sonra dərk etməyə başlamışam. Vətən bizik, hamımızıq. Onun dünəninə də, bu gününə də, sabahına da hamımız cavabdehik. Bunu hansı peşəyə sahib olmağımızdan asılı olmayaraq canımızla-qanımızla sübut etməyə hazırıq".

"Hərbi xidmətini şərəflə başa vurub əzizlərimizin yanına üzüağ, alnıaçıq dönəcəyimə söz vermişəm", - əsgər deyir. - "Vətənin bizlərə böyük ehtiyacı var. Çünki qarşımızda müqəddəs torpaqlarımızı azad etmək missiyası dayanır. Bu ülvi arzuya mütləq qovuşacağıq".



**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
foto
Coşqun CƏFƏROVUNDUR**

*Kitab təkcə bilik mənbəyi deyil...*

*Kitab həm də oxuyanın xarakterinin formalaşmasında, təbiətlə, cəmiyyətlə daha gərəkli ünsiyyət vasitəsidir...*

*Hərbi xidmətə başlayan çağırışçı adını eşidib özünü görmədiyi rayonu da tanımaq istəyir. Az müddətdə döyüş növbətçiliyi apardığı mövqeni tanıyır. Bəs rayonu? Zamanında oxuduqlarını, eşitdiklərini görmədən tanıyır, sevir. Bu sevgi onu görməyə də həvəsləndirir. Hərbi xidmətdədi, bəs necə tanısın? Əsgər bu sevginin xidmət illərinin cığırdaşı olmasını da arzulayır...*

## *Yeni kitablar*



# QAZAX - XİDMƏT ETDİYİN DİYAR

Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbaninin "Qazax - xidmət etdiyin diyar" kitab-albomu da məhz bu missiya üçündü - əsgər xidmət etdiyi rayonu daha əhatəli tanısın, onun tarixini daha əhatəli öyrənsin. İllər sonra xidmət etdiyi ərazi haqqında daha geniş məlumat verə bilsin, sevgilərlə danışsın.

Əsgər üçün xidmət etdiyi rayon Vətənin bir parçasıdı...

Əsgər ona tapşırılan mövqedə döyüş növbətçiliyi aparır - Vətəni qoruyur...

Abdulla Qurbaninin kitab-albomu mahiyyəti etibarilə vətənpərvərliyin təzahürüdü: Azərbaycan əsgəri Vətəni xəritə bütövlüyü miqyasında sevsin...

Kitab-albom şəkil informasiyalar kitabıdı; müəllif oxucuları ilə belə mükalimələşir. Şəkil informasiyalar Qazaxın təbiətindən, tarixindən - keçmişindən, bu günündən, illərdi torpağı qoruyanlarından, qəhrəmanlarından, şəhidlərindən, ... danışır...

Göyəzən Qazaxın ucalıq rəmzidi. İlhamlı şair Səməd Vurğun göylərə baş çəkən Göyəzən dağını - tariximizin daş yaddaşının yaşdaşını sözə vurğunların, "hər sadə, mürəkkəb cümləsinin mübtədası Vətən olanların" ruhunun səyyarəsi kimi tərənnüm edirdi. Göyəzən dağının əzəmətini kitab-albomun tanışlıq "cığırı" bilənlərin sırasında mən də varam. Müəllif Göyəzən dağını ümummilli liderimiz Heydər Əliyevin bir kəlamıyla təqdim edir: "Xalqla ordunun birliyi həm xalqın qüdrətini artırır, həm də ordunu daha qüvvətli edir...". Belə kəlamın Göyəzən simvolu ilə təqdimi tərtibatın dəyər amilidi, şübhəsiz...

Yaşı min illəri aşan abidələr, tarixi bəlli olmayan baş daşları - daş kitabələr, sirrini kimsəyə açmayan damcılı, irili-xırdalı mağaralar, orta əsrlərin nişanəsi olan qəbirüstü abidələr Qazaxın bəşər sivilizasiyasının inkişafının ünvanlarından biri kimi təqdim olunur. Bu da sevgidi - Qazaxın timsalında Vətənə, Qazaxda xidmət edən əsgərlərə sevgi...

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Qazaxda ön xətdə dediyi "Qazax ölkəmizin qərb qapısıdır, strateji əhəmiyyətə malikdir. Mən əminəm ki, siz bundan sonra da yenilməz qala olan Qazaxın müdafiəsində möhkəm, ayıq-sayıq dayanacaq, Vətən qarşısında əsgər borcunu şərəflə yerinə yetirəcəksiniz" kəlamları burada xidmət edən əsgərlərə, zabitlərə inamın, etibarın, ehtiramın təsdiqidir. "Qazax - xidmət etdiyin diyar" kitabı həm də Azərbaycan əsgərinin mənəvi-psixoloji hazırlığını yüksəldən inamın, etibarın, ehtiramın kitabıdır...

"Sərkərdəni sərkərdə edən onun ordusudur, ordunu ordu edən onun sərkərdəsidir" - Abdulla Qurbani xalq yazıçısı İsmayıl Şıxlının bu fikrini bir həqiqətin təntənəsinin epiqrafı kimi təqdim edib: aprel döyüşlərində sərkərdənin sərkərdəliyi də təsdiqləndi, ordunun orduluğu da! Sülh danışıqları baş tutmasa, Azərbaycan Ordusu Ali Baş Komandanın sərkərdəliyi ilə torpaqlarımızı işğaldan azad edəcək! Yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan Azərbaycan əsgəri daha möhtəşəm tarix yazacaq!

Qırmızı körpünün - Sınıx körpünün şəkli deyir ki, bu körpü Vətəni Vətənin qıraqda qalan yeri ilə birləşdirən mədi-ruhi körpüdü. Kitab-albomda bu və bu kimi şəkillərin təqdim edilməsi tarixi keçmişimizə sayğıdı və Azərbaycan əsgərinin Azərbaycanımızın tarixi keçmişini yaddaşında yaşatma istəyi vətənpərvərlik kimi dəyərləndirilməlidi; Abdulla Qurbaninin tərtibat yozumu belədi. Bu kimi məqamlar kitabın bədii dəyəri hesab olunmalıdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zəminində ilk faciələrdən biri Bağanıs Ayrımda törədildi. Unutmuruq. Unudulmayacaq. Əsgər bu faciənin ürək göynədən kadrlarını yaddaşına, yaddaşından ürəyinə, ürəyindən ömrünə köçürəcək, yaşaya-yaşaya o tarixi də yaşadacaq, o tarixi yaşada-yaşada yaşayacaq; "Qazax - xidmət etdiyin diyar" kitab-albomu həm də tarix haqqında tarixi kitabdı, tarixin kitabıdı...

Tarixi şəxsiyyətlər haqqında müfəssəl məlumatlar Azərbaycan əsgərinin (ümumən oxuyanların) erudisiyasına, dünya duyumunun zənginləşməsinə, məlumatlılığına,... təsir göstərəcək. Tam artilleriya generalı Əlağa Şıxlinski, general İbrahim ağa Vəkilov, general Cavid bəy Şıxlinski, ilk azərbaycanlı təyyarəçi Fərrux ağa Qayibov,... haqqında yazılanları kiçik həcmli oçerk bilirəm.



Ermənistanla sərhəd olan Qazax rayonunun 7 kəndi işğal olunub. Bir neçə kəndi düşmənin atəşlərinə məruz qalır. Azərbaycan əsgəri atəşkəsi pozan, təxribatlar törətmək istəyən düşmənin niyyətini mərdliklə çilikləyir. Kitab-albomda Qazaxdan olan Azərbaycanın Milli qəhrəmanlar, şəhidlər haqqında da elegik məlumatlar da verilib. Bu, şəhidlərə, şəhidliyə, şəhidlərin ölümsüz ömürlərinə vətənpərvər şair-publisist ehtiramıdı. Azərbaycan əsgəri bu ehtiramın da keşikçisidi. "Qazax - xidmət etdiyin diyar" kitab-albomu həm də buna görə əsgərlərin, zabitlərin mənəvi-psixoloji hazırlığında dəyərli olacaq. Müəllifin Azərbaycan əsgərinə müraciətinin ("Vətən əsgəri! Xidmət etdiyin bölgənin - Qazax rayonunun qəhrəmanlarını yaxından tanı və onların igidliklərini təkrar etməyə hər an hazır ol!") mahiyyətində Dədə Qorqudluq duyulur.

Bu dəyərli kitab-albomda Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, müxtəlif vaxtlarda müxtəlif bölgələrdə keçirilmiş "Xalq ordunun, ordu xalqın dayağı", "Sənə inanırıq, ölkə rəhbəri, sənə güvənirik, Vətən əsgəri", "Ön səngərdən əsgər gəlir", ... kimi kütləvi vətənpərvərlik tədbirlərinin mahiyyətinin işığı görünür...

..."Deyilən söz yadigardır" - Səməd Vurğunun kəlamıdı...

Nəşr edilən hər dəyərli kitab da yadigardı. "Qazax - xidmət etdiyin diyar" kitab-albomu da...

**Rəşid HÜSEYNOV,
əməkdar jurnalist**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

## (İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Həmrəyliyimiz birliyimizin və varlığımızın qarantıdır.

**Suallar:**
**1. 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür.**
**2. Dünya azərbaycanlarının vahid birliyinin bərqərar olunması.**

*31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür*

31 Dekabr Azərbaycan xalqının tarixində ən yadda qalan, ən şərəfli günlərdən biri - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Bu günün əsası 1989-cu ildə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın Azərbaycan sərhədinin (SSRİ-İran sərhədinin) dağıdılması ilə qoyulub. Uzun zaman bir-birinə həsrət qalanların sərhəd dirəklərini yıxması azərbaycanlıların həmrəylik istəyinin simvolik nişanıdır.

1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlı ilə əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Bu əlamətdar günün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilib.

Azərbaycanlılar minilliklər boyu özlərinin tarixi torpağı olan Azərbaycan ərazisində yaşayaraq bəşər sivilizasiyasına böyük töhfələr veriblər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanıb, azərbaycanlıların bir qismi yurd-yuvasından didərgin salınıb, deportasiyalara məruz qalıb, iş tapmaq, təhsil almaq məqsədi ilə doğma Vətəni tərk edərək başqa ölkələrdə məskunlaşıb.

Azərbaycanlıların yaşadıqları, fəaliyyət göstərdikləri və çoxluq təşkil etdikləri Avropa ölkələrində diaspor təşkilatları öz qüvvələrini səfərbər etməkdə ardıcıldırlar və bu, sivil qurumlar halında birləşmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan zaman-zaman parçalanmış, soydaşlarımızın bir qismi öz yurd-yuvalarından didərgin salınmışlar.

Beləliklə də, azərbaycanlılar tarixi Azərbaycan torpaqlarından bütün dünyaya yayılmışlar. Hazırda onlar dünyanın bir çox ölkələrində yaşayırlar. Rusiyada, Ukraynada, Müstəqil Dövlətlər Birliyinin digər ölkələrində, Baltikyanı ölkələrdə, Avropada, Amerikada, Şərq ölkələrində iri Azərbaycan icmaları yaranmışdır.

*Dünya azərbaycanlarının vahid birliyinin bərqərar olunması*

Xalqımız, dünyanın müxtəlif ölkələrində məskunlaşmış soydaşlarımız hər il dekabrın 31-də milli həmrəylik gününü böyük təntənə ilə qeyd edir. Qədim tarixə malik xalqımız bu əlamətdar bayramı uzun illərdən bəri qorunub saxlanılmış ənənələrinə, mədəniyyətinə, tarixi köklərinə xas olan xoş amallarla, duyğularla keçirir. Bu bayram ildən-ilə daha geniş vüsət alır, ürəyində Vətən eşqi, milli-mənəvi birlik hissləri olan hər bir soydaşımız tərəfindən güclü dəstək alır. İlk dəfə həmrəylik və birlik arzuları ilə dillərə gətirilən və rəsmiləşdirilən bu bayram ürəklərdə uzun illərdən bəri qorunan azadlıq və birlik hisslərinin təzahürüdür.

Bütün məşhur siyasi xadimlər kimi, ulu öndər Heydər Əliyev də öz xalqının, ölkəsinin iqtisadiyyatı, maddi rifah halının yaxşılaşdırılması ilə bərabər, onun ümummədəni tərəqqisinin qayğısına qalmış, xalqımızın dünyada layiqli yer tutmasına, obyektiv səbəblərdən bütün dünyaya səpələnmiş soydaşlarımızın ümummilli məqsədlər ətrafında birləşməsinə çalışmışdır. 1997-ci ildə ABŞ-a rəsmi səfəri zamanı ümummilli lider Heydər Əliyev Azərbaycan diasporu qarşısındakı çıxışında qarşıda duran vəzifələrdən danışarkən demişdir: "Siz düşünməyin ki, Azərbaycan bizim üçün nə edib, düşünün ki, biz Azərbaycan üçün nə etmişik. Onda Azərbaycan da irəlidə gedər, Azərbaycan diasporu da inkişaf edər. Bilirsiniz, xaricdə yaşayan azərbaycanlıların çoxu Azərbaycanda doğulmayıb. Nə olsun. Məgər Amerikada yaşayan ermənilər Ermənistanda doğulub, məgər onlar Dağlıq Qarabağda doğulub? Amma ermənidirlər, ona görə də Ermənistan haqqında düşünürlər. Amerikada yaşayan azərbaycanlıların isə biri deyir, mən İranda doğulmuşam, o biri deyir mən Turanda doğulmuşam. Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısan".

1994-1995-ci illərdə Azərbaycanın ciddi təhlükələrlə üzləşdiyi zaman ümummilli lider Heydər Əliyevin çağırışı ilə yüz minlərlə həmvətənlimizin ölkə başçısının ətrafında toplaşması, ona dəstək verməsi milli birlik və həmrəyliyimizin tarixində ən parlaq səhifələrdən birinə çevrilmişdir.

Ulu Öndər hakimiyyətə gəldiyi ilk gündən özünəxas uzaqgörənliklə xarici siyasətdə strateji hədəfləri düzgün müəyyənləşdirərək demişdir ki, müasir dövrdə hər bir dövlətin qüdrəti yalnız iqtisadi resurslarla deyil, həm də onun xaricdə formalaşdırdığı diaspor və lobbinin gücü ilə ölçülür. Bu sahəyə xüsusi diqqət yetirmədən xarici siyasətdə hansısa ciddi nailiyyətlər qazanmaq, habelə milli məsələlərin beynəlxalq müstəvidə qaldırılmasına nail olmaq mümkün deyil.

Azərbaycan diasporunun təşkilatlanması prosesində ən mühüm, taleyüklü hadisə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi oldu. Qurultayda dərin məzmunlu nitq söyləyən ulu öndər Heydər Əliyev dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti və dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi zərurəti, ana dilinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi haqqında fikirlərini açıqlamışdı.

"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam", - deyən ümummilli lider Heydər Əliyevin həmin mərasimdə söylədiyi fikirlər bu gün də hər bir azərbaycanlının milli qürur hissinin ifadə formasına çevrilib.

Ulu Öndərin siyasi kursunun layiqli davamçısı olan Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev bu xəttə sadiqliyini hakimiyyətə gəldiyi ilk vaxtlardan nümayiş etdirir.

Prezident İlham Əliyevin 8 fevral 2006-cı il tarixli Sərəncamı ilə 2006-cı il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II qurultayının keçirilməsi diaspor quruculuğu işində yeni mərhələ oldu. Dövlət başçısı İlham Əliyev diaspor quruculuğu baxımından ümumtürk birliyinin möhkəmləndirilməsi xəttini xarici siyasətdə mühüm istiqamətlərdən biri kimi müəyyənləşdirərək, təkcə Türkiyə ilə deyil, Orta Asiyanın türkdilli dövlətləri ilə də münasibətləri gücləndirmək xəttinə üstünlük verir.

2009-cu ildə Bakıda Türkdilli Ölkələrin Parlament Assambleyasının birinci sammitinin keçirilməsi ümumtürk birliyinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü strategiyanın uğurlu davamıdır. Türkdilli ölkələrin dövlət başçılarının 2009-cu ilin oktyabrında Naxçıvanda keçirilən IX zirvə toplantısında Prezident İlham Əliyev dərin məzmunlu çıxış etmiş, türkdilli dövlətlərin birliyini zəruri edən amilləri bir daha diqqətə çatdırmışdır: "Biz bilirik ki, beynəlxalq müstəvidə öz mövqeyini müdafiə etmək bəzi hallarda o qədər də asan olmur. Biz birlikdə olsaq, müəyyən məsələlərdə vahid mövqedən çıxış etsək və bu birliyi mütəmadi işlərlə möhkəmləndirsək, bizim beynəlxalq mövqelərimiz daha da güclü olacaqdır. Çünki türkdilli dövlətlərdə bütün imkanlar vardır - təbii sərvətlər, neft-qaz yataqları, əlverişli coğrafi vəziyyət, güclü iqtisadiyyatlar, insanların istedadı, mövcud olan yeni infrastruktur. Bütün bu imkanları biz əgər bir yerə toplasaq və bir yerdə cəmləşdirsək, türkdilli dövlətlər dünya miqyasında böyük gücə çevriləcəkdir. Bu gücə çevrilmək üçün biz səmərəli işləməliyik. Bu, bizim əlimizdədir, bizim iradəmizdən asılıdır. Mən çox şadam ki, bizim aramızda olan birlik son illər daha da güclənir".

Həmrəylik günü dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılar tərəfindən qeyd edilir, Azərbaycan Respublikasında isə dövlət bayramıdır. Rusiyada, Türkiyədə, Almaniyada, Fransada, Böyük Britaniyada, Skandinav ölkələrində, ABŞ-da, Yaxın Şərq ölkələrində böyük azərbaycanlı icmaları fəaliyyət göstərir.

Diaspor quruculuğu sahəsində hələ çox işlər görülməlidir. Prezident İlham Əliyevin bu sahədə ardıcıl və qətiyyətli, məqsədyönlü və prinsipial siyasət aparması deməyə əsas verir ki, yaxın illərdə Azərbaycan diasporu daha da güclənəcək, ölkənin taleyüklü məsələlərinin həllində daha yaxından iştirak edəcəkdir. Bizim xaricdə 462 diaspor təşkilatımız var. Bu, onu göstərir ki, azərbaycanlıların yaşadıqları hər bir ölkədə bir neçə diaspor təşkilatı var. Əlbəttə, bu təşkilatlar arasında koordinasiya işi aparılır, birlik, həmrəylik var. Bizim diaspor təşkilatlarımız bir-biri ilə sağlam rəqabət aparır və biz bunu alqışlayırıq. Bu rəqabət ümumi işimizə xidmət edir. Biz ölkə daxilində də, xaricdə də birlik nümayiş etdirməliyik və unutmamalıyıq ki, gücümüz birliyimizdədir. Bu gün Azərbaycanda vətəndaş cəmiyyəti birlik nümayiş etdirərək, vahid amal uğrunda fəaliyyət göstərir. Ölkəmizin gələcəyi ilə, strateji istiqamətlə bağlı cəmiyyətimizdə fikir ayrılığı yoxdur. Dövlət müstəqilliyi, iqtisadi müstəqillik, sosial məsələlərin həlli, ərazi bütövlüyümüzün bərpası, digər məsələlər ətrafında cəmiyyətdə vahid fikir, konsensus var.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər il 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibəti ilə xalqa müraciət edir. Dövlət başçısı hesab edir ki, xaricdəki azərbaycanlılar arasında azərbaycançılıq ideyaları, milli mənəvi dəyərlər getdikcə daha dərin kök salır. "Onlar məskunlaşdıqları ölkələrin ictimai-siyasi, mədəni və işgüzar həyatında mühüm mövqelərə sahib olmaqla yanaşı, həm də Azərbaycanın dünyaya təqdim olunmasına, maddi və mənəvi irsimizin təbliğinə, ölkəmiz əleyhinə yönəlmiş ideoloji təxribatların qarşısının alınmasına öz töhfələrini verirlər".

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında respublikanın ictimai və siyasi həyatında, eləcə də Silahlı Qüvvələrdə böyük sürətlə aparılan quruculuq işləri dövlətimizin idarəçiliyinin etibarlı əllərdə olduğunu dünyaya sübut edir. Azərbaycan xalqı öz lideri ətrafında sıx birləşərək Qarabağ problemində heç bir vəchlə güzəştə getməyəcək və münaqişə öz həllini ölkəmizin ərazi bütövlüyü çərçivəsində tapacaqdır. Bu gün Azərbaycan həmişəkindən daha güclüdür. Bizim gücümüz təkcə iqtisadi və hərbi qüdrətimizlə deyil, həm də sıx birliyimizlə ölçülür.

Dünya azərbaycanlılarının vahid birliyinin bərqərar olması və tarixi Azərbaycan torpaqlarının geri qaytarılması üçün hər bir vətəndaşımız kimi, biz hərbi qulluqçular da öz hərbi xidmətimiz dövründə əlimizdən gələnləri əsirgəməyəcək, o tarixi anı yaşamağımızı təzləşdirəcəyik.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

Ordu və cəmiyyət

# “Sevinirəm ki, nəvəm Vətənin müdafiəsində dayanacaq”

*Dövlətin müstəqilliyinin və təhlükəsizliyinin qorunması onun ordusuna həvalə olunur. Məhz buna görə də ordu şərəfli bir vəzifəni həyata keçirir. Bu vəzifənin müqəddəsliyini dərk edən Azərbaycan xalqı da ordusuna böyük rəğbət bəsləyir, əsgəri, zabiti ilə fəxr edir.*



Ulu öndər Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı nəticəsində ölkəmizdə güclü ordu formalaşıb. Hərbi hissələrdə abadlıq-quruculuq işləri aparılır, məişət şəraiti yaxşılaşır və müasir hərbi şəhərciklər istifadəyə verilir.

Müasir silah-sursat, peşəkar zabit heyəti, hazırlıqlı döyüşçülərlə yanaşı, qələbə üçün ruhlandırıcı amillərdən biri də xalqla ordunun sıx əlaqəsi, xalqın orduya güvəncidir. Xalqın orduya mənəvi dəstəyi döyüşçülərə əzmkarlıq, vətənpərvərlik duyğuları aşılayır. Əsgərlərimiz bu ruhda formalaşır.

Son vaxtlar Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişi ilə orduda geniş vətənpərvərlik tədbirləri keçirilir. Aprel döyüşləri xalqın ordusuna olan dəstəyini bir daha təsdiqlədi. Şəhər və rayonlardan cəbhə bölgəsinə axışan gənclər əsgərlərimizə, hərbçilərimizə dəstəkləri ifadə etdilər. Döyüş mövqelərində xidmət edən əsgərlərimiz də qeyd edirlər ki, xalqımızın orduya dəstəyi onları daha da ruhlandırır.

Müdafiə nazirinin əmri ilə hərbi hissələrdə "Açıq qapı" günlərinin keçirilməsi xalqla ordunun birliyinin möhkəmlənməsində böyük rol oynayır. Belə tədbirlərdə əsgər valideynləri, ictimaiyyətin nümayəndələri əsgərlərlə sıx təmas yaradır, onların məişət şəraiti ilə yaxından tanış olurlar. Bu cür sıx ünsiyyət insanların orduya, əsgərə münasibətini formalaşdırır.

Əsgərlərin Vətənə sədaqət andı qəbul etdikləri gün hərbi hissələrdə yaşanan izdihamı gördükcə qürurlanırıq. Hər valideyn sırada duran övladını axtarır. Bu cür anlarda onların gözlərindəki sevinci sezməmək mümkün deyil. Kimi sevincdən ağlayır, kimi də övladını bağrına basıb "Səninlə fəxr edirəm!" deyir.

Hərbi andiçmə mərasimindəydik. Tədbir gözəl məqamlarla yadda qaldı. Mərasimdən sonra hər kəs öz əsgər övladı ilə görüşür, sevincini, fərəhini bölüşürdü. Sıra meydanının kənarında bir ağbirçək ana diqqətimi cəlb etdi. O, əsgərin əllərindən öpürdü. Sevinclərinə şərik olmaq üçün onlara yaxınlaşdım. "Niyə məhz əsgərin əllərindən öpdün?" - sualı ilə qadına müraciət edirəm.

- Mən də sevinirəm ki, nəvəm Vətənin müdafiəsində dayanacaq, - deyir. - Ay bala, oğul Vətən üçün doğulur. Bu əllər silah tutub Vətəni qoruyacaq. Bu əllər illərcə bizi Qarabağa həsrət qoyan, soydaşlarımızı torpaqlarından didərgin salan, Xocalıda yüzlərlə insanı qətlə yetirən düşməni məhv edəcək. Bu gün hamımız Vətən naminə səfərbər olmalıyıq.

Yaşlı bir ananın sözlərindən də görünür ki, Azərbaycan xalqı - istər kişi, istərsə də qadın torpaqlarımızın azadlığı uğrunda mübariz olmalıdır. İnanıram ki, gözəl Qarabağımızı görmək mənə də nəsib olacaq.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**



Hərbi ənənələr, yeniliklər

# Pilotsuz uçuş aparatı “Boeinq Skeeter”

Amerikanın hərbi pilotsuz uçuş aparatı Boeinq Skeeter "Boeinq" şirkəti tərəfindən hazırlanıb. Aparatdan hərbi təlimlərin keçirilməsində, hava hücumundan müdafiə sistemində operatorların öyrədilməsində, yeni silahlanma sistemlərinin sınaqlarında və s. istifadə edilir. Amerika istehsallı Boeinq Skeeter modelli hərbi pilotsuz uçuş aparatları lazımi habarit ölçülərə malikdir. Bu qurğunun hündürlüyü 6,10 metr və qanadlarının açılması isə 3,3 metr təşkil edir. Skeeterin güc qurğusu bir reaktiv mühərrikdən ibarətdir ki, onunla hava vasitələrini maksimal uçuş sürəti saatda 1050 kilometr olmaqla qova bilər. Bundan başqa uçuş aparatı 120 kilometrlik məsafəyə qədər uçuşu yerinə yetirməyə və 3 saata qədər havada qalmağa qadirdir. Onun maksimal uçuş hündürlüyü 15300 metrə qədərdir.




**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Gələn il İranda Xəzəryanı dövlətlərin hərbi dəniz qüvvələri komandanlarının görüşü olacaq

Xəzər sülh və dostluq dənizi olaraq qalacaq. İran və digər Xəzəryanı ölkələr dəniz vasitəsilə əməkdaşlıq əlaqələrini artırıblar.

AZƏRTAC xəbər verir ki, bu sözləri İran ordusunun dəniz qüvvələrinin komandanı admiral Hüseyn Hanzadi keçirdiyi mətbuat konfransında deyib.

Admiral qeyd edib ki, İran, Rusiya, Azərbaycan, Türkmənistan və Qazaxıstanın dəniz qüvvələri sülhün və əmin-amanlığın qorunması istiqamətində əməkdaşlıq edirlər və bu əməkdaşlıq gündən-günə genişlənir.

H.Hanzadi diqqətə çatdırıb ki, gələn ilin may ayında Xəzəryanı dövlətlərin dəniz qüvvələrinin komandanları İranın Gülüstan vilayətində görüşəcəklər. Görüşdə qarşılıqlı əməkdaşlıq əlaqələrinin genişləndirilməsi və birgə hərbi təlimlərin keçirilməsi məsələləri müzakirə ediləcək.

# Xəbərlər: hadisələr, faktlar

## Soçidə Rusiya, Türkiyə və İran prezidentlərinin danışıqları başa çatıb



Soçidə Rusiya, Türkiyə və İran prezidentlərinin Suriya münaqişəsinin həllinə dair üçtərəfli danışıqları başa çatıb.

Danışıqların yekununa dair keçirilən mətbuat konfransında tərəflər Suriyada terrorçulara qarşı irimiqyaslı döyüş əməliyyatlarının üç ölkənin səyləri nəticəsində başa çatdığını qeyd ediblər. Danışıqlarda Rusiya, Türkiyə və İranın Suriya ilə bağlı əməkdaşlığının prioritet tərəflərini müəyyən edən birgə bəyanat qəbul olunub. Bundan əlavə, Soçidə Suriyada milli dialoq konqresinin təşkilinin vaxtı və konqres iştirakçılarının tərkibinin hazırlanması barədə razılıq əldə edilib.

## Tbilisidə keçirilən əməliyyat zamanı 3 terrorçu öldürülüb



Tbilisi şəhərinin İsani-Samqori rayonu ərazisindəki Qabriel Salou prospektindəki yaşayış binalarının birində həyata keçirilən antiterror əməliyyatı zamanı bir terrorçu sağ ələ keçirilib, 3 terrorçu öldürülüb.

Bu barədə Gürcüstan Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşı Nino Qiorqobiani bu gün keçirdiyi brifinqdə məlumat verib.

Əməliyyat zamanı xüsusi təyinatlı dəstənin iki üzvü və Daxili İşlər Nazirliyinin əməkdaşları yaralanıb. Xüsusi təyinatlı dəstənin yaralanmış üzvü səhər saatlarında xəstəxanada ölüb.

## Qəzaya uğrayan ABŞ təyyarəsindəki 11 nəfərdən 8-i xilas edilib



ABŞ Hərbi Dəniz Qüvvələrinin Okinava adasının cənub-şərqində qəzaya uğrayan C-2 təyyarəsinin göyərtəsindəki 11 nəfərdən 8-i xilas edilib.

Bunu jurnalistlərə Yaponiyanın müdafiə naziri İsunori Onodera bildirib. Hazırda hadisə yerində axtarış-xilasetmə əməliyyatı davam etdirilir.

ABŞ donanmasının 7-ci operativ komandanlığının məlumatına görə, "Ronald Reyqan" təyyarədaşıyan gəmisi istiqamətində uçan təyyarə Okinava adasından 530 kilometr cənub-şərqdə, Filippin dənizindəki Okinotori rifi yaxınlığında suya çırpılıb.

Qəzaya təyyarənin mühərrikində yaranan nasazlığın səbəb olduğu güman edilir.

## Mina partlayışı nəticəsində Ermənistan ordusunun üç hərbçisi ölüb



Noyabrın 21-də Ermənistan ordusunun üç hərbi qulluqçusunun ölümü ilə nəticələnən qanlı insident baş verib.

Ermənistanın "news.am" saytına istinadla xəbər verilir ki, işğal olunmuş Ağdərə yaşayış məntəqəsi ərazisində yerləşən hərbi hissələrin birində mina partlayışı nəticəsində üç hərbçi ölüb, biri ağır yaralanıb.

Erməni saytlarının və ölənlərdən birinin qohumunun sosial şəbəkədə paylaşdığı məlumata görə, partlayış mina quraşdırılarkən baş verib. Nəticədə 1995-ci il təvəllüdlü leytenant Geğam Zakaryan, müqavilə əsasında xidmət edən hərbçilər - 1998-ci il təvəllüdlü Sarkis Abramyan və Sarkis Melikyan ölüb.

Ağır vəziyyətdə hospitala aparılan əsgər - 1998-ci il təvəllüdlü Narek Oveyan çoxsaylı qəlpə yaraları alıb və onun vəziyyətinin kritik olduğu bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# Kursantların fiziki hazırlığını daha da artırmaq üçün...

*Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəhbərliyi kursantların fiziki hazırlığını daim diqqət mərkəzində saxlayır. Hərbi liseydə istirahət və asudə vaxtlarda müxtəlif idman turnirləri, kütləvi idman yarışları keçirilir. Kursantlar bu yarışlarda fəallıq göstərərək təmsil etdikləri bölmələri irəli çıxarmağa, qalib gəlməyə çalışırlar. Buna görə də yarışlar gərgin mübarizə şəraitində keçir.*





Bu günlərdə hərbi təhsil ocağının idman meydançalarında böyük canlanma var idi. Yarışlarda iştirak edən kursantların üz-gözündən sevinc yağırdı.

- Kursantlarımız keçirilən bütün yarışlara həvəslə qatılırlar, - deyə Hərbi liseyin idman rəisi Fərhad Əliyev söhbətə başladı. - Bu gün də həmin fəallıq və həvəs aydın hiss olunur. Kursantların fiziki hazırlıqlarını artırmağa olan maraqlarını daha da yüksəltmək məqsədi ilə bu gün idmanın yeddi növü üzrə yarışlar keçirilir. Kəndirdartma, basketbol, futbol, şahmat, voleybol, estafet qaçışı və turnikdə dartınma yarışlarında iştirak etməklə kursantlar asudə vaxtlarından daha səmərəli istifadə edirlər. Eyni vaxtda keçirilən bu yarışların gedişinə idman müəllimləri nəzarət edirlər. Bir qayda olaraq yarışlarda həmişə obyektivlik gözlənilir. Hansı komandanın hazırlığı yüksəkdirsə, o da qələbə sevincini yaşayır. Belə kütləvi idman yarışlarının keçirilməsinin kursantların fiziki hazırlığının yüksəlməsinə müsbət təsiri var. Yarışdan-yarışa onlarda həm idmana həvəs artır, həm də yeni vərdişlər formalaşır. Tapşırıqları daha cəld və çevik yerinə yetirirlər. Belə cəld və çevik hərəkətlər isə gələcək mübarizələrdə kursantlara böyük uğurlar qazandıracaq, qələbə sevinci yaşadacaq. Əgər belə tədbirlərdə kursantların idmana həvəsi artırsa, fiziki hazırlıqları yüksəlirsə, yarışlarda müsbət nəticələr göstərirlərsə, deməli, biz qarşımıza qoyulan məqsədə nail oluruq.

Yarışların keçirildiyi meydançalara baş çəkirik. Kəndirdartma yarışı keçirilən sahədə iki komandaya bölünmüş kursantların gücü, qüvvəti sınağa çəkilir. Hansı komanda daha güclüdürsə, rəqib komandanın üzvlərini müəyyən edilmiş xətdən dartıb keçirir. Bununla da güclü və rəqib komandadan daha üstün olduqlarını göstərirlər. Beləcə, yarış qələbəliklə davam edir.

Başqa sahələrdə keçirilən yarışları da yaxından izlədik. Hər yerdə qələbəlik, mübarizlik və böyük canlanma yaşandığını gördük. Bu gün idman meydançalarında qazanılan qələbələr kursantları daha böyük uğurlara həvəsləndirəcək.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

*Tibb xidməti*

# Ordu cəsurların ünvanıdır



Azərbaycan Silahlı Qüvvələrində şəxsi heyətin sağlamlığını, sağlam həyat səviyyəsini qorumaq hərbi hissələrin tibb xidmətlərinin qarşısında duran ən vacib məsələlərdəndir. Hərbi hissələrin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində tibb müəssisələri də yenidən qurulur, müasir tibbi avadanlıqlarla təchiz edilir, intensiv müalicənin aparılması üçün tibb elminin son nailiyyətlərindən istifadə olunur.

Cəbhə xəttində artilleriya divizionunun tibb məntəqəsinə də baş çəkirik. Əsgərlərin stasionar müalicəsi üçün lazımi şəraiti olan müasir tibb məntəqəsində səliqə-sahman diqqətimizi cəlb edir. Təcrübəli gizir Ramil Şəldiyevin sözlərinə görə, sanitar-təlimatçılarla birlikdə əsgərlərin sağlamlıq durumu ilə yerində maraqlanırlar: "Hərbi hissə komandirinin göstərişinə əsasən, şəxsi heyətin sağlamlığının qorunması üçün tibb xidməti vacib tədbirlər həyata keçirir. Öncə gənc əsgərləri diqqət mərkəzində saxlayırıq. Son illər orduda həyata keçirilən sosial tədbirlərin və vaxtında göstərilən tibbi müdaxilənin hesabına şəxsi heyət arasında xəstələnmə halları çox azdır. İlkin tibbi yardım göstərilən əsgərlər ehtiyac duyulduqda hərbi hissənin tibb məntəqəsinə göndərilir."

Gizir onu da qeyd etdi ki, yay mövsümündə infeksion xəstəliklərə qarşı profilaktik tədbirlər həyata keçirildiyinə görə, şəxsi heyət arasında günvurma halları qeydə alınmadı. Yay mövsümü geridə qalıb. İndi bizim qarşımızda payız-qış mövsümünün qayğıları dayanır.

"Şəxsi heyətin vaxtlı-vaxtında yuyunması, yataq və paltarlarının dəyişdirilməsi, əsgər yataqxanalarının təmizliyinə nəzarət və s. amillər xəstələnmə hallarının qarşısını alır", - deyə sanitar-təlimatçı müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Ramin Məhərrəmov söhbətə qoşulur. Qeyd edir ki, diviziondun tibb məntəqəsində ilkin tibbi yardım göstərilməsi üçün hər cür şərait yaradılıb. Əsgərlər arasında hər hansı xəstəliyin aşkar edilmir, tibbi maarifləndirilmə işi davamlı surətdə aparılır. Günün nizam qaydalarına uyğun olaraq, şəxsi heyət arasında mütləq gigiyenik və əks-epidemik tələblər gözlənilir. Bütün bunlar şəxsi heyətin sağlamlığını təmin edir.

Sanitar-təlimatçı onu da bildirir ki, il ərzində istər tibb məntəqəsi rəisləri, istərsə də sanitar-təlimatçılar üçün keçirilən toplantılar onların bilik və bacarıqlarının formalaşmasında xüsusi rol oynayır. Əldə edilən bilik və bacarıqlar, uzunmüddətli təcrübə əsgərlərin sağlamlığının qorunması işinə töhfələrini verir.

Sağlam əsgər Vətənin müdafiəsinin təminatçısıdı. Bu o deməkdir ki, torpaqlarımızın qorunmasında şəxsi heyətin sağlamlığının keşiyini çəkən tibb işçilərinin də payı vardır.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**N.PƏNAHOVUNDUR**

# İşğalçı Ermənistan ordusunda cinayət hadisələrinin sayı artır

Məzuniyyətdə olan ermənistanlı zabitlər də artıq xidmət yerinə qayıtmaq istəmir və müxtəlif bəhanələrlə xidmətdən yayınırlar.

Hərbi hissələrdən birinin tabor komandirinin müavini Levon Babayan məzuniyyətdən qayıtmadığı üçün həbs edilib.

Ermənistanlı sosial şəbəkə istifadəçiləri belə bir məlumat da paylaşıblar ki, hərbi xidmətə yeni çağırılan 38 zabitdən 13 nəfəri xidmət etmək istəmədiyi üçün cəzalandırılıb və xidmət yerləri başqa hərbi hissəyə dəyişdirilib.

* * *

Azərbaycanın işğal olunmuş ərazilərində yerləşən düşmən ordusunun hərbi hissələrində qarşılıqlı münasibətlərin pozulması zəminində daha bir neçə cinayət hadisəsi baş verib.

Hadrut yaşayış məntəqəsində yerləşən işğalçı ordunun bölmələrinin birində baş verən dava nəticəsində hərbi qulluqçu Mxitar Barseğyanın ayağı sınıb. Xocavənd rayonu ərazisindəki hərbi hissədə isə əsgər yoldaşını döyən Slavik Xudoyan tabor komandiri tərəfindən həbs edilib.

İşğal olunmuş ərazilərimizdəki Ermənistan ordusunun digər hərbi hissəsində isə nizamnamədən kənar münasibətlər zəminində daha iki cinayət hadisəsi qeydə alınıb. Nəticədə xəsarət alanlar var. Döyüş mövqeyində növbədə olarkən hərbi qulluqçular Rubik Avakyan ilə Serik Gevorkyan arasında baş verən nizamnamədən kənar davranış sonradan davaya səbəb olub.

Başqa bir hadisə zamanı Qarabağdan olan əsgərlər tərəfindən hərbi qulluqçu Rafik Xaçaturyan döyülüb. Ayağından zədə alan minaatan bölməsinin əsgəri R.Xaçaturyanın vəziyyəti ağırlaşdığı üçün xəstəxanaya yerləşdirilib.

Baş verən cinayət hadisələri valideynlərdən və hüquq mühafizə orqanlarından gizlədilir.

* * *

Ermənistan ordusunda zabitlər də qarşılıqlı münasibətləri kobud şəkildə pozur, tabeliklərində olan hərbi qulluqçulara qarşı fiziki güc tətbiq edir, nalayiq söyüşlərlə təhqir edirlər.

Bu günlərdə gənc əsgərlər Robert Ayvazyan və Karen Hakopyan zabitlər tərəfindən məruz qaldıqları təhqirlərə dözməyərək qəsdən özlərinə xəsarət yetiriblər. Müqavilə əsasında xidmət edən Armen Yeğazaryan isə onu söyən zabiti döyüb. Tabor komandiri Robert Hambartsumyan tərəfindən döyülən əsgər isə hərbi hissənin tibb məntəqəsinə yerləşdirilib.

Baş verən hadisələrlə bağlı hərbi polis tərəfindən araşdırma aparılır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Babayev Ramiz Yadigar oğluna 2014-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 586
Nüsxə 4600